# HÜQUQ ELMİNİN TƏŞƏKKÜLÜ VƏ FORMALAŞMASI

**Z.Ə. Məmmədov**

AMEA, Elm Tarixi İnstitutu

*Məqalədə qeyd olunur ki, hüquq elmi birdən-birə və yaxud təsadüf nəticəsində yaranmamışdır. Onun meydana gəlməsinə və inkişafına təbii-tarixi proseslərin, o cümlədən bəzi mühüm ictimai hadisələrin böyük və mühüm təsiri olmuşdur. Hüquq elmi hüququn əmələ gəlməsini, inkişafını və fəaliyyətini xronoloji ardıcıllıqla öyrənir. Bu, həm də müxtəlif tarixi dövrlərdə yaranmış ayrı-ayrı dövlətlər çərçivəsində öyrənilir. Belə ki, hüquq elminin tarixinin müxtəlif mərhələlərində həmin elmin məzmununda, predmetində və strukturunda müvafiq dövrün (ictimai formasiyanın) tələblərinə uyğun surətdə müəyyən dəyişikliklər baş vermişdir.*

***Açar sözlər:*** *Azərbaycan, hüquq, xüsusi, elm, dövlət.*

**Hüquq elminin meydana gəlməsinin qısa xülasəsi.** Hüquq elmi birdən-birə və yaxud təsadüf nəticəsində yaranmamışdır. Onun meydana gəlməsinə və inkişafına təbii-tarixi proseslərin, o cümlədən bəzi mühüm ictimai hadisələrin böyük və mühüm təsiri olmuşdur. Belə təbii-tarixi və sosial hadisə dövlətdir. İstər xarici, istərsə də vətən hüquq ədəbiyyatında birmənalı surətdə təsdiq edilir ki, hüquq elmi (ilk növbədə bilavasitə hüququn özü) dövlətlərin yaranması ilə eyni vaxtda əmələ gəlmiş və inkişaf etmişdir. Əlbəttə, bu prosesdə hüquq elminin bilavasitə özü deyil, sosial bir fenomen kimi, hüquq dövlətlə eyni tarixi şəraitdə, paralel surətdə yaranmışdır. Dövlətin və hüququn bir-birindən təcrid edilmiş halda əmələ gəlməsi qeyri-mümkündür, çünki dövlət hüquqsuz, hüquq isə dövlətsiz mövcud ola bilməz. Hüquq elminə gəldikdə isə, qeyd etmək zəruridir ki, o, insanın şüurlu fəaliyyətinin müstəqil sahələrindən biri olmaq etibarilə dövlətin və hüququn tam bərabər olması və əlahiddə inkişaf yoluna tam qədəm qoymasından sonra təşəkkül tapmışdır. Burada ifadə olunan "dövlətin və hüququn tam bərqərar olması" fikri şərti mənada işlədilir, lakin nəzərə almaq lazımdır ki, hüquq bir elm kimi dövlətin və hüququn cəmiyyətdə tam vətəndaşlıq qazanmasından sonra formalaşa bilərdi və formalaşmışdır.

Tanınmış rus dövlət və hüquq tarixçisi, professor P.N.Qalanza yazır ki, hüquq elmi dövlət-hüquq münasibətlərinin müəyyən sahələrini tənzimləyən normalarla bağlıdır. Bu cəhətdən dövlət hüququnu daha erkən tarixi dövrdə təşəkkül tapmış hüquq elmi kimi qiymətləndirmək olar. Məhz dövlət hüququ (hazırda bu elm "Konstitusiya hüququ" adı ilə adlandırılır – Z.M.) digər hüquq elmlərindən fərqli olaraq, dövləti və hüququ bir elm kimi bütövlükdə, qarşılıqlı əlaqədə öyrənir [2, s. 13].

Bu mülahizə ilə razılaşaraq əlavə etmək istəyirik ki, hüquq elmi təkcə hüququ deyil, həm də dövləti öyrənir, çünki dövlət də, hüquq da bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan, eyni zamanda da nisbi əlahiddə fenomenlərdir. Bununla belə, həmin fenomenləri bir-birindən təcrid edilmiş halda öyrənmək istənilən elmi nəticələri verə bilməz.

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, biz hüquq elminin tarixini öyrənirik deyərkən, eyni zamanda da dövlətin öyrənilməsinin zəruri olması haqqında danışırıq. Lakin bununla əlaqədar belə bir cəhəti də qeyd etmək vacibdir ki, hazırda dünyanın tarix-hüquq ədəbiyyatında hüquq elminin predmetinin anlayışı ilə bağlı hamılıqla qəbul olunmuş vahid fikir yoxdur. Ancaq müxtəlif illərdə ayrı-ayrı müəlliflər tərəfindən hüquq elminin anlayışına təriflər verilməsinə səylər göstərilmişdir [6, s. 278-283]. Hüquq elmi hüququn əmələ gəlməsini, inkişafını və fəaliyyətini xronoloji ardıcıllıqla öyrənir. Bu, həm də müxtəlif tarixi dövrlərdə yaranmış ayrı-ayrı dövlətlər çərçivəsində öyrənilir. Belə ki, hüquq elminin tarixinin müxtəlif mərhələlərində həmin elmin məzmununda, predmetində və strukturunda müvafiq dövrün (ictimai formasiyanın) tələblərinə uyğun surətdə müəyyən dəyişikliklər baş vermişdir.

Adından göründüyü kimi, hüquq elminin yaranması, inkişafı və fəaliyyət tarixi ilə ancaq dövlət və hüquq tarixi (şübhəsiz ki, öz predmeti çərçivəsində) elmi məşğul olur. Lakin bunu dövlət haqqında elmin predmetinə sırf olaraq aid etmək düzgün olmazdı. Dövlət ümumdövlət və hüquq tarixi elmi tərəfindən öyrənilsə də, o, daha çox siyasətşünaslıq, siyasi tarix elminin predmeti

daxilində öyrənilir, daha dəqiq desək, adları çəkilən elmlərin öyrənmə və tədqiqat predmetinə aiddir.

Beləliklə, hüquq elminin təşəkkülü və formalaşması təbii-tarixi proseslərin qanuna-uyğunluqlarının nəticəsidir. Bu elm hüququn sosial bir fenomen kimi təzahür etməsi, cəmiyyət həyatının ən mühüm tənzimləyicisi olması və hər bir fərdin davranışına dair qaydaların məcmusu olması zərurətindən irəli gəlmişdir. Həmin təbii-tarixi proses, əlbəttə ki, insan cəmiyyətinin ən əhəmiyyətli yetirməsi olan dövlət çərçivəsində mümkün olmuşdur. Əgər dövlət olmasaydı, nə hüquqa, nə hüquq elminə, nə də belə bir elmin öyrənilməsinə və tədqiq edilməsinə heç bir ehtiyac qalmazdı. Başqa sözlə, hüquq həmişə dövlətə, dövlət isə hüquqa möhtac olmuşdur. Bu isə o deməkdir ki, hüquq elmi dövlət haqqında elmin üzərində, onun nüvəsində təşəkkül tapmışdır. Hüquq elmi də öz növbəsində dövləti onun üçün zəruri olan ünsürlərlə zənginləşdirmiş, təkcə cəmiyyəti deyil, həm də dövlətin işlək mexanizmini daim hərəkətə gətirmişdir.

Bütün digər humanitar elmlər kimi, hüquq elmi də öz təşəkkül və formalaşma prosesi ərzində bu sahədə biliklərin təkmilləşməsi sayəsində inkişaf etmişdir. Bu mənada o, bəşəri fəaliyyətdən təcrid edilmiş halda təsəvvür oluna bilməz. Deməli, hüquq elmi dedikdə, insan fəaliyyətinin müəyyən əlahiddə sahəsi başa düşülür. Bu baxımdan həmin fəaliyyətin başlıca funksiyası qismində hüquq haqqında obyektiv biliklərin işlənib hazırlanması, eləcə də onların sistemləşdirilməsi çıxış edir. Nəzərə almaq zəruridir ki, hüquq haqqındakı obyektiv biliklər cəmiyyətin hüquqi gerçəkliyinin, hüquqi reallıqlarının nəzəri təcəssümündən ibarətdir. Digər ictimai elm sahələri kimi, hüquq elmi də ictimai şüurun formalarından biridir. İctimai şüur formaları isə özündə həmişə aşağıdakıları ehtiva etmişdir:

1) müvafiq fəaliyyət növü kimi, hər hansı elm (burada hüquq elmi) haqqında biliklər əldə olunması prosesi. Bu, hüquq elminin müxtəlif sahələri üzrə ixtisaslaşmış tədqiqatçıların hüquq haqqında yeni biliklərin əldə edilməsinə yönələn yaradıcılıq (fərdi və kollektiv) səylərindən ibarət olan proses, idrak prosesidir;

2) hüquq haqqında zəruri və yeni biliklərin məcmusu bu prosesin nəticəsidir. Həmin proses gedişində əldə olunmuş elmi nəticələr zahiri cəhətdən müxtəlif elmi nəşrlərdə, dissertasiyalarda (magistr, fəlsəfə doktoru, elmlər doktoru üzrə yerinə yetirilmiş tədqiqat işlərində), konfranslarda və digər elmi simpoziumlarda edilən çıxışlarda, ekspert rəylərində, normativ hüquqi aktların layihələrində, işlənib hazırlanmaqda olan elmi proqram layihələrində və s. ifadə oluna bilər.

Belə bir cəhəti qeyd etmək zəruridir ki, yeni biliklər əldə edilməsinə yönələn elmi fəaliyyət prosesində təhlil və tədqiqatlar müqayisəli xarakter daşıyır. Bu, elmə yanaşmanın müasir mərhələdə hamılıqla qəbul olunmuş ən optimal metodlarından biridir. Hüquq elmində müqayisəli metoddan hazırda geniş istifadə edilir. Bu, iki və ya daha çox obyektlərin üst-üstə qoyulmaqla və ya tutuşdurulmaqla müqayisə edilməsindən ibarətdir. Müqayisəli metod ən qədim zamanlardan bu günə qədər elmə məlum olan, həm də məlum olmayan obyektlərin ümumi qanunauyğunluqlarının müəyyənləşdirilməsini özündə ehtiva etməklə yanaşı, eyni zamanda, ədəbiyyatda göstərildiyi kimi, həmin obyektlərin müxtəlif dövrlərdə, habelə keçmişdə və indi mövcud olan keyfiyyətlərinin, onlarda baş vermiş dəyişikliklərin və ya inkişaf ənənələrinin müəyyən edilməsinə yönələn metoddur [8, s. 14].

Beləliklə, hüquq elmində müqayisəli metoddan həm eyni vaxtda, həm də tarixi inkişafın müxtəlif mərhələlərində mövcud olmuş obyektlərin, onların spesifik xüsusiyyətlərinin, nəhayət, həmin obyektlərdə müvafiq dövrün tələblərinə uyğun baş vermiş dəyişikliklərin və inkişaf ənənələrinin müqayisə edilməsi (normativ hüquqi aktların məzmununun, onlarda baş vermiş dəyişikliklərin, təkmilləşdirmələrin və s.) üçün istifadə olunur.

**Hüquq elminin strukturu.** Struktursuz, yəni özünəməxsus quruluşu, orjinal görüntüsü olmayan elm yoxdur. Hər bir elmin strukturu özündə subyekti, obyekti, predmeti, dərketmə (idrak) metodlarını və vasitələrini, elmi tədqiqatların nəticələrinin yeniliyini ehtiva edir. Elmin strukturunda hər hansı dəyişikliklərin baş verməsi adətən, elmin yeni sahələrinin meydana gəlməsi və onların özünü praktikada doğrultması ilə bağlıdır. Hüquq elminin tarixən təşəkkül tapmış strukturunda ən son novasiya elmi tədqiqatların nəticələrinin yeniliyidir. Əvvəlki dövrlərdə hüquq elminin

strukturunda belə bir element mövcud (məsələn, quldarlıq, feodalizm, yeni dövrün hüquq elmində) olmamışdır.

**A. Hüquq elminin subyekti.** Hər bir elm sahəsində aparılan tədqiqatlarda canlı insan çıxış edir. Həmin insan hüquq elmində fiziki şəxs (mülki hüquq elmi çərçivəsində) adlandırılır. Bu cəhətdən hüquq elmində subyekt dedikdə, həmin rolda çıxış edən konkret tədqiqatçı və ya elmi kollektiv nəzərdə tutulur.

Tədqiqatçı adi fiziki şəxs deyil. Belə ki, o, tədqiqatlar apardığı sahə üzrə peşə biliyinin müəyyən səviyyəsinə, ümumi və xüsusi biliklər kompleksinə malik olmalıdır. Xüsusilə də hüquq elmi sahəsində tədqiqat aparan şəxsin zəruri hüquq düşüncəsi və hüquq mədəniyyəti olmalıdır. Tədqiqatçı-hüquqşünas hüquqi təfəkkür tərzi ilə yanaşı, ümumi və xüsusi idrak metodlarına malik olmalı, elmi axtarışlara xüsusi təşəbbüs göstərməlidir. Başqa sözlə, subyektin elmi tədqiqatlarla məşğul olmaq imkanı ilə yanaşı, həm də buna istəyi olmalıdır.

**B. Hüquq elminin obyekti.** Hüquq elminin obyekti hüquqi gerçəkliyin hüquqi hadisə və proseslərinin bütün məcmusunu təşkil edir. O özündə aşağıdakı komponentləri ehtiva edir:

- hüquq elminin müxtəlif inkişaf mərhələlərində ayrı-ayrı doktrina və konsepsiyaların, nəzəriyyə və təlimlərin hüquq haqqında ideyalarının, eləcə də filosof və mütəfəkkirlərin görüşlərinin məcmusu;
- hüquq normalarının məcmusu;
- hüquq normaları ilə tənzimlənən ictimai münasibətlərin məcmusu;
- hüquqyaratma (hüquqyaradıcılıq, qanunyaratma və s.);

Göstərmək zəruridir ki, oxşar obyektlər hüquq elmi ilə yaxınlığa malik olan digər humanitar elm sahələrində (məsələn, fəlsəfə, sosiologiya, politologiya, tarix, iqtisadi nəzəriyyə və s.) də mövcud ola bilər. Buna görə də hüquq elmləri ilə qonşu olan bir sıra elmlər fərqləndirilirlər. Məsələn, hüquq fəlsəfəsi, hüquq sosiologiyası, hüquq tarixi, müqayisəli hüquqşünaslıq, müqayisəli dövlətşünaslıq, müqayisəli qanunşünaslıq və s.

**C. Hüquq elminin predmeti.** Hər hansı elmin predmeti dedikdə, hər şeydən əvvəl, həmin elm sahəsinin nəyi öyrəndiyi diqqət mərkəzində durur. Bununla yanaşı, elmin tədqiqat predmeti də mövcuddur və bu, müvafiq elmin nəyi tədqiq etməsi sualına cavab verir.

Hüquq elminin predmetini bilavasitə bu elm tərəfindən öyrənilən obyekt təşkil edir. Bu mənada, adından göründüyü kimi, hüquq elmi hüququn yaranmasını, inkişafını və onun fəaliyyətinin qanunauyğunluqlarını öyrənir. Hüquq elmi bununla bərabər, hüququn müasir vəziyyətini də öyrənir. Hüquq elminin öyrənmə predmetinin mərkəzi elementlərindən birincisi hüquqşünaslıqdır. Hüquqşünaslığı hüquqla eyniləşdirmək olmaz. Hüquq ümumi anlayışdır və o, hüquq elminin də tərkib hissələrini, inkişaf qanunauyğunluqlarını əhatə edir. Hüquqi terminologiyanın (hüquq dilinin) özü də bilavasitə hüquqa aiddir. Bununla belə, bilavasitə hüquqa təsir göstərən digər inkişaf qanunauyğunluqları da bütövlükdə hüquq elminin öyrənmə predmetinin üzvü hissəsidir. İnkişaf etməkdə olan digər qanunauyğunluqlara adətən, iqtisadi, siyasi, mədəni və s. qanunauyğunluqlar aid edilir.

Bütövlükdə hüquq elminin tərkib hissəsi olan hüquqşünaslıq isə əlahiddə ixtisasdır. Hüquqşünaslıq da özünəməxsus tərkib hissələrinə malikdir və belə hissələrə aşağıdakılar aid edilir:

- ✓ hüquqi praktika;
- ✓ hüquq pozuntusu (cinayətlər və xətalar);
- ✓ hüquq məsuliyyəti (hüquqi məsuliyyət – intizam məsuliyyəti, inzibati məsuliyyət, maddi məsuliyyət və s.).

**Ç. Hüquq elminin dərketmə (idrak) metodları və vasitələri.** İlk növbədə qeyd etmək lazımdır ki, hüquq elmlərinin metodologiyası fəlsəfənin, xüsusən də hüquq fəlsəfəsinin öyrənmə və tədqiqat predmetinə daxildir. Ona görə də metodologiya başqa bir mövzudur və bu yazının təhlil obyektinə daxil deyildir. Qeyd edilən vasitələr isə əsasən texniki vasitələri (hesablama və kompyuter texnikasını, video-texnikanı və s.) əhatə edir.

**D. Hüquq elminin elmi tədqiqatlarının yeniliyi.** Bu struktur elementi hüquq elmi sahəsində aparılan tədqiqatların ən son nailiyyətlərini özündə ehtiva edir. Belə yeniliklərin əhəmiyyəti onların dövlət və hüquq nəzəriyyəsi elmini, hüquq və dövlət haqqında təlimlər tarixi

elmini, habelə hüquq fəlsəfəsi və hüquq sosiologiyası elmlərinin zənginləşdirməsində təzahür edir. Yeniliklə, hər şeydən əvvəl, hüquq elminin özünün bütövlükdə inkişafına güclü təsir göstərir.

Müasir mərhələdə humanitar elmlər sahəsində diqqət mərkəzində olan məsələlərdən biri din və hüququn qarşılıqlı əlaqəsi problemidir. Hələ keçən əsrin 70-80-ci illərinin ədəbiyyatında qeyd olunurdu ki, hüquq dinlə sıx bağlı olmuşdur və belə qarşılıqlı bağlılıq hətta ibtidai icma cəmiyyətində yaranmışdır [5, s. 94-95]. Fikrimizcə, belə qarşılıqlı əlaqə ibtidai cəmiyyətin son – yetkinlik dövrünə aid edilə bilər. Məhz yetkinlik dövründə (ibtidai cəmiyyət, ümumiyyətlə, vəhşilik, gənclik və yetkinlik mərhələlərindən keçmişdir) ibtidai insanlarda artıq nitq meydana gəlmiş, dinin ilkin rüşeymləri (deizm, fetişizm) təzahür etməyə başlamış və bunun da nəticəsində cəmiyyətin idarə olunmasında başlıca rol oynayan ağsaqqallar şurası öz fəaliyyətində əsasən, adətlərdən, ənənələrdən və digər sosial normalardan, xüsusilə dini normalardan istifadə etmişdir. Elə bu şəraitdə də hüquqla (sosial norma mənasında hüquq nəzərdə tutulur) din arasında qarşılıqlı əlaqənin yaranması labüd şəkil almışdır.

Hüquq elmi sahəsində dini baxışlar əsasən hüquq normalarının formalaşması prosesində hüquq düşüncəsinin tərkib hissəsi rolunu oynamışdır.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, hüquq elmi özünün dəqiq olmasa da, təqribi tarixinə malikdir və bu, uzun sürən bir proses olmuşdur.

**Hüquq elminin inkişafinin tarixi mərhələləri.** Hüquq elminin inkişafının tarixi mərhələlərə bölgüsü adətən, bəşəriyyətin tarixi inkişaf dövrləri ilə əlaqələndirilir. Bu isə, ümumi tarixdən məlum olduğu kimi, bəşəriyyətin ictimai-iqtisadi formasiyalara bölgüsü ilə bağlıdır. Eyni zamanda qeyd etmək zəruridir ki, elmin, o cümlədən hüquq elminin inkişafının tarixi mərhələlərə bölgüsü həmişə şərti xarakter daşımışdır və bu da cəmiyyət və dövlətlərin inkişafında hər bir tarixi inkişaf dövrünün özünəməxsus tələbləri ilə bağlıdır. Məsələn, hüquq elminin inkişafının elə tarixi dövrü vardır ki, həmin tarixi zaman kəsiyində hüquq elminin inkişafına təkan verə bilən nəzəriyyə və təlimlər irəli sürülməmişdir.

Əgər hüquq elminin inkişafının tarixi mərhələlərinə bəşəriyyətin ictimai-iqtisadi formasiyalara bölgüsü baxımından yanaşılarsa, o zaman dövrlərə bölgü aşağıdakı kimi alınacaqdır:

1) Qədim Dünya tarixi (e.ə. təqribən XXX əsr – eramızın V əsri), yəni Roma imperiyasının süqutuna (eramızın 476-cı ili) qədər birinci dövlətlərin yarandığı dövr. Bu mərhələ əsasən hüquq elminin Qədim Yunanıstanda və Qədim Romadakı tarixi genezisi ilə bağlıdır.

2) Orta Əsrlər tarixi (V əsrin sonu – XV əsrin sonu). 1492-ci ildə Amerikanın kəşf edilməsi və qloballaşmanın başlanması bu dövrün yuxarı sərhədlərinə xidmət edə bilər. Bu dövr Bizans hüququ ilə, sonra isə Avropa dövlətlərinin hüququ ilə, nəhayət hüquqi təhsilin yaranması ilə bağlıdır.

3) Yeni dövr (XVI-XIX əsrlər). Bu dövrün yuxarı sərhədinə Birinci Dünya müharibəsi (1914-1918) və Rusiyada 1917-ci il inqilabi hadisələri xidmət edir. Məhz bu dövrdə müasir anlamda hüquq elmi formalaşmışdır. Dövrün özü, onda baş verən proseslər isə əsasən Avropa və Amerika Birləşmiş Ştatlarındakı dövlətlərlə bağlıdır.

4) Ən yeni dövr (XX əsrdən bu günədək olan mərhələ). Bu dövr hüquq elminin inkişafı ilə bağlıdır və məhz bu mərhələdə hüquq elminin inkişafı qlobal xarakter almışdır.

Göstərmək lazımdır ki, ifadə edilən dövrləşmə A.M. Luşnikov tərəfindən irəli sürülmüşdür [7, s. 5].

Bəzi mülahizələrimizə görə, müəllifin təqdim etdiyi dövrləşmə ilə tam razılaşmaq çətindir. Birincisi, hamılıqla qəbul olunmuşdur ki, hüquq və hüquq elmi dövlətlərin əmələ gəlməsi ilə eyni vaxtda yaranmışdır. A.M. Luşnikov da belə mövqedən çıxış etsə də, lakin hüququn və hüquq elminin yaranmasını Qədim Yunanıstan və Roma ilə əlaqələndirir [7, s. 6]. Bu həqiqətdən uzaqdır, çünki ilk dövlətlər və ya dövlət qurumları Qədim Şərqdə (Qədim Şumerdə, Misirdə, eləcə də Azərbaycanda və s. Şərq quldarlıq sivilizasiyalarında) meydana gəlmişdir. Deməli, bu cəhətdən hüququn və hüquq elminin də məhz həmin regionda təşəkkül tapması istisna oluna bilməz.

İkincisi, Amerikanın kəşfinin və qloballaşmanın başlanmasının hüquq elminin yaranması ilə necə bağlı olmasının izahı verilmir. Ümumiyyətlə, müəllifin belə nəticə çıxarması bir qədər müəmmalıdır.

Üçüncüsü, nə Birinci dünya müharibəsinin, nə də Rusiyada inqilabi hadisələrin hüquq elminin təşəkkülü və formalaşması ilə heç bir əlaqəsi ola bilməz. Digər tərəfdən, konkret olaraq hansı inqilabi hadisənin (əgər belə hadisə 1917-ci ilin oktyabr hadisələrinə aid edilirsə, qeyd etmək zəruridir ki, 1917-ci ilin oktyabrında Petroqradda inqilabi deyil, dövlət çevrilişi baş vermişdir və bu, müvəqqəti hökumətin hakimiyyəti heç bir müqavimət göstərmədən və ya silah işlətmədən bolşeviklərə verməsindən ibarət olmuşdur) baş verməsi aydınlaşdırılmır.

Bu mülahizələrə uyğun olaraq bir daha göstərmək istəyirik ki, yuxarıdakı dövrləşməni (hətta şərti olsa da) tam uğurlu hesab etmək mümkün deyil.

Belə bir cəhəti nəzərə almaq lazımdır ki, hazırda dövlətin və hüququn yaranması, inkişafı və fəaliyyətinə dair bəşəriyyətin inkişaf tarixinin formasiyalara uyğun dövrləşdirilməsi heç də hamı tərəfindən qəbul olunmur. Formasiyalı dövrləşdirmə marksistlərə məxsus konsepsiyadır və bu, özünün elmi həqiqətlərə uyğun olmadığını hələ marksizm-leninizmin varlığı dövründə tapmışdı. Doğrudur, belə dövrləşdirmə tamamilə inkar edilməsə də, lakin tam mənada da qəbul olunmur.

Yuxarıda deyilənlərə istinadən biz öz tərəfimizdən hüquq elminin yaranmasının aşağıdakı dövrləşməsini təklif edirik:

1) Qədim dünya;
2) Orta Əsrlər;
3) İntibah və Reformasiya dövrü;
4) Burjua inqilabları (permanent inqilablar) dövrü;
5) Yeni dövr (azad rəqabətlər dövrü);
6) Ən yeni dövr (inhisarçı kapitalizm, imperializm, sosializm, qarşı-qarşıya duran iki sistem, müstəmləkələrin azad olunduğu, "real sosializmin" böhranlı dövrü).

Təqdim edilən dövrləşmə tarix elmindən götürülmüşdür və qeyd edilən tarixi inkişaf mərhələləri bəşəriyyətin ictimai-siyasi, mədəni təkamül prosesi ilə yanaşı, elmi tərəqqi dövrlərini də özündə ehtiva edir. Lakin bu dövrləşməni də tam həcmdə qəti təsnifat qismində qiymətləndirmək bir qədər şişirtmə olardı. Artıq göstərildiyi kimi, bəşəriyyətin elmi inkişaf mərhələləri şərtidir və buna görə də hüquq ədəbiyyatında irəli sürülən mülahizələrdən birinə uyğun olaraq "inkişaf mərhələlərinin tarix elmindən belə əxz edilməsinin hüquqauyğunluğunu sübut etmək çətindir" [4, s.4].

Hüquq elmi nə utopiya deyil, nə də fantastik səciyyə daşımır. O, müxtəlif tarixi inkişaf dövrlərinin hüquqi gerçəkliklərini real amillərlə əks etdirir, hüquq elminin inkişafı gedişində baş vermiş tərəqqi və tənəzzül illərini, eləcə də ayrı-ayrı tarixi mərhələlərinin özünəməxsus orijinallıqlarını real faktlar əsasında təqdim edir.

Tərəfimizdən təqdim edilən dövrləşmə vahid prinsip üzrə qurulmamışdır. Dövrləşmənin birinci 3 (üç) hissəsi (Qədim Dünya, Orta Əsrlər, İntibah və Reformasiya dövrü) dünya tarixinin klassik bölgüsünü təcəssüm etdirir. Məhz klassik dövrdə bütün digər elm sahələrində (əlbəttə, o dövrdə mövcud olmuş elm sferalarında) olduğu kimi, hüquq elminin də ilkin rüşeymləri təşəkkül tapmış, tədricən formalaşmış və inkişaf etmiş, beləliklə də, növbəti dövrlərin mükəmməl zəminləri hazırlanmışdır.

Dövrləşmənin qurulmasında vahid prinsipə əməl olunması elmin uşaqlığı, onun gəncliyi və yetkinliyi kimi tarixi təsdiqləri nümayiş etdirir. Bununla əlaqədar ədəbiyyatda belə bir maraqlı mülahizə mövcuddur ki, elmin uşaqlığı, gəncliyi və yetkinlik dövrü olsa da, elm heç vaxt qocalıq dövrünü tanımamışdır və indi də tanımır. Elmin inkişafı və onun ayrı-ayrı müddəalarının təkmilləşdirilməsi, habelə elmi tərəqqi və onun nailiyyətləri elmi həmişə cavan saxlayır, onun gəncliyinə bir növ daimilik, əbədilik verir. Bu cəhətdən humanitar elmlər də təbiət elmlərindən və dəqiq elmlərdən geri qalmır [1, s.67]. Bunu hüquq elminə şamil etmək olarmı? Fikrimizcə, həmin müddəa hüquq elmi (elmləri) üçün də səciyyəvidir.

Əgər vahidlik prinsipi rəhbər tutularsa, hüquq elminin inkişafının İntibah və Reformasiya dövrünün ardınca Yeni və Ən Yeni dövrlərin hüquq elmlərinin inkişaf mərhələsi gəlməli idi. Lakin bizim təqdim etdiyimiz dövrləşmədə onların yerini burjua inqilabları (permanent inqilablar) dövrü tutur. Bu gür məntiqi qeyri-mükəmməlliyin özü də hüquq elminin özünün və onun ayrı-ayrı sahələrinin tədris edilməsi prosesinin tələbatlarından irəli gəlir. Belə ki, qədim və orta əsrlərin

hüquq elminin vəziyyətindən fərqli olaraq məhz burjua inqilabları dövründə hüquq elmi ümumbəşəri dəyərlərlə zənginləşmiş, o, dövrün tələbatlarına uyğun yeni prinsiplərlə əhatə olunmuş və hüquq elmi sxolastik ideyalardan təmizlənərək, hüquqi gerçəklikləri və sosial həyatın reallıqlarını əks etdirən elm kimi təzahür etməyə başlamışdır.

Hüquq elminin tarixi inkişafının Qədim Dünya Mərhələsi eramızdan əvvəl I minilliyin ortalarından başlayaraq eramızın V əsrinədək olan böyük bir dövrü əhatə edir. Məhz bu dövrdə özünün inkişaf ənənələrini Qədim Şərq sivilizasiyalarından götürən Qədim Yunan və Roma dünyanın hüquq elminə misilsiz töhfələr vermişdir. Bu, dünya hüquq mədəniyyətinin klassik dövrü olmaq etibarilə, onun zənginləşməsinin başlanğıcı da hesab oluna bilər. Qədim Roma hüquq elmi sonrakı inkişaf dövrlərində Avropanın demək olar ki, əksər dövlətlərinin hüquq elmi üçün etalon rolunu oynamışdır. Məhz Roma hüquq elminin mənimsənilməsi (resepsiyası) sayəsində Qərbin bir çox ölkələrinin mükəmməl hüquq sistemi formalaşmışdır.

Hüquq elminin inkişafının Orta Əsrlər dövrü nisbi olaraq 2 (iki) inkişaf mərhələsinə bölünə bilər:

A) Erkən orta əsrlər dövrü (VI-IX əsrlər);

B) Orta əsrlər dövrü (X-XV əsrlər).

Hüquq elminin inkişafının erkən orta əsrlər dövrü feodal münasibətlərin yaranması və formalaşması mərhələsini təşkil edir. Orta əsrlər dövrü isə feodalizmin inkişafı və tədricən tənəzzülə uğraması ilə əlamətdardır. Məhz XV əsrdə feodal ictimai münasibətləri daxilində meydana çıxan ziddiyyətlər və onların getdikcə zənginləşməsi, nəhayət XVII əsrin başlanğıcına doğru kapitalist münasibətlərinin meydana çıxmasına zəmin yaratmışdır. Bu mərhələdə hüquq elmi artıq təbii hüquq nəzəriyyəsinə arxalanaraq, hüquqşünasların yeni elmi müddəalarının yaranmasına təkan vermiş, hüquq dar bir çərçivədən çıxaraq hamının və hər kəsin hüququna çevrilmişdir.

Hüquq elminin inkişafında yeni dövr mərhələsi adətən, 1870-ci ildən başlanır (Paris Kommunasının yarandığı vaxtdan) və onun inkişafında ən məhsuldar mərhələ kimi qiymətləndirilir. Bu mərhələ XIX əsrin sonunadək davam etmişdir. Hüquq elminin yeni dövrdə inkişafı ona görə ən məhsuldar mərhələ hesab olunur ki, məhz həmin dövrdə hüquq elminin (xüsusən də cinayət və cinayət-prosessual hüquq elminin) öz aktuallığını bu gün də qoruyub saxlamış prinsipial müddəaları, ümumi və xüsusi prinsipləri həyata vəsiqə almışdır.

Qeyd etmək zəruridir ki, həmin prinsiplər hələ XVIII əsrdə Fransada baş vermiş inqilabi hadisələr gedişində fransız maarifçilərinin işləyib hazırladıqları nəzəri müddəalar idi. Belə ki, Volterin (əsl adı Fransua-Mari Aruedir, 1694-1778) Jan Jak Russonun (1712-1778), Şarl Lui Monteskyenin (1689-1755) və s. fransız mütəfəkkirlərinin Böyük Fransız inqilabı üçün işləyib hazırladıqları inqilabi çağırışlar dərin hüquqi məzmuna malik idi. Məsələ burasındadır ki, məhz həmin nəzəri müddəalar növbəti illərdə Avropanın ayrı-ayrı dövlətlərinin konstitusiyasının və milli qanunvericiliklərinin mühüm prinsiplərinə çevrilmişdir. Onların bəziləri aşağıdakılardan ibarətdir:

- ✓ “qanunla qadağan olunmayan hər şeyi etməyə icazə verilir”;
- ✓ “qanunla qadağan olunanı etməyə icazə verilmir”;
- ✓ “bir cinayətə görə ancaq bir cəza təyin edilə bilər” və s.

Zaman keçdikcə, xüsusilə də XIX-XX əsrlərin başlanğıcında tarixin gedişi xeyli sürətlənmiş, buna uyğun olaraq hüquq elmi də öz tərəqqisinə böyük intensivlik əldə etmişdir. Hüquq ədəbiyyatında göstərilir ki, hüquqi fikrin inkişafı məhz XX əsrin (bu, ən Yeni dövrün başlanğıcıdır) başlanğıcında o qədər intensiv olmuşdur ki, “hüquq elminin yeni müddəalar cəbbəxanasında sürətli yeniləşmə baş vermişdir. Bunun da sayəsində hüquq elminin inkişafı eyni zamanda da sosial-iqtisadi və siyasi həyata sirayət etməyə başlamış, məhz hüquq elminin yenilikləri nəticəsində dövlət-hüquqi nəzəriyyə həyati tələbatlardan birinə çevrilmişdir” [3, s. 24].

Hüquq elminin tarixi inkişafının dövrləşməsini əks etdirən yuxarıdakı tarixi inkişaf mərhələləri başlıca olaraq Azərbaycanın və ya Şərqin deyil, Qərb ölkələrinin tarixinə əsaslanır. Çünki təqdim edilən dövrləşmənin əsasını Qərb dövlətlərinin tarixi materialları təşkil edir. Ona görə də həmin dövrləşmənin hətta ayrı-ayrı hissələrinə Şərq ölkələrinin tarixi məlumatlarının heç olmasa, hərfən daxil edilməsi mümkün deyil. Lakin bu halda belə, hüquq elminin təqdim edilən dövrləşməsi müqayisəli təhlil prosesində öz dəyərini, xüsusən də metodoloji dəyərini qoruyub saxlayır.

Göstərmək lazımdır ki, digər sahələrdə olduğu kimi, hüquq elminin inkişafı sferasında da Qərb məhz İntibah və Reformasiya dövründən (XIV-XVI əsrlər) başlayaraq sürətlə irəli getməyə və Şərqi geridə qoymağa başlamışdır. Biz burada Şərq deyərkən ilk növbədə müsəlman (islam) hüquq elminin tarixi mərhələlər üzrə inkişaf dövrlərini nəzərdə tuturuq. Hüquq elmi və siyasi quruculuq sahəsində Qərbin həyata keçirdiyi sıçrayışlı tədbirlər həm də onun ekspansiyasına, müstəmləkəçiliyə və imperializmin meydana gəlməsinə səbəb oldu. Lakin bu, hüquq elminin inkişafdan dayanması demək deyildi. Elə həmin şəraitdə Qərbdə yaranan və dünyanın digər ölkələrinin hüquqi ideyalarına təsir göstərən elmi nailiyyətlər qüdrətli və sabit olduqlarına görə intensiv surətdə irəli getməkdə idi. Əksinə, Şərqin belə şəraitdə Qərbə və onun mənəvi mədəniyyətinə, dəyərlərinə ideoloji təsiri, yəni Şərqin təsir ənənələri getdikcə zəifləyirdi. Vəziyyət elə gətirdi ki, burjua inqilablarından sonra Şərqin bəzi dövlətlərinin hüquq elmi o dövrdə Qərbdə irəli sürülən prinsipial ideyaların təsiri altında inkişaf etməyə başlamışdı.

Beləliklə, hüquq elminin inkişafının tarixi mərhələləri ilə bağlı verilmiş qısa təhlilləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, bütün dövlətlərə və onların hüquq elminə şamil olunan dövrləşmə ancaq formal-xronoloji ardıcıllıq əsasında mümkündür. Lakin bunun özü də müvafiq dövrün bütövlükdə xarakteristikası üçün kifayət deyil.

Hüquq elminin inkişafı (tarixi inkişaf mərhələlərindən asılı olmayaraq) daha çox siyasi-hüquqi fikrin, ideya və nəzəriyyələrin, təlimlərin, müxtəlif konsepsiya və doktrinaların inkişafı ilə bağlıdır. Bu prosesdəki müvafiq dövrün yalnız ideologiyası hüquqa təsirsiz ötüşmür.

## ƏDƏBİYYAT


1. Добровольский Н.В. Молодость науки. М.: Мысль, 1999.
2. История государства и права зарубежных стран / Под редакцией П.Н. Галанзы и Б.С. Громакова. М.: БЕК, 2002.
3. История политических и правовых учений: Учебник / Под ред. В.Г. Графского. М.: Юристъ, 2012.
4. История политических и правовых учений: Учебник / Под ред. О.В.Мартышина. М.: Норма, 2006.
5. Клочков В.В. Религия, государство, право. М.: Мысль, 1978.
6. Курицын В.М. Советская историко-правовая наука: очерки становления и развития: М.: Наука, 1978.
7. Лушников А.М. История и методология юридической науки: Учебно-методическое пособие. Ярославль, Ярославский государственный университет имени П.Г. Демидова, 2015.
8. Тилле А.А., Швеков Г.В. Сравнительный метод в юридических дисциплинах. М.: Высшая школа, 1973.


### *ОБРАЗОВАНИЕ И ФОРМИРОВАНИЕ ЮРИДИЧЕСКОЙ НАУКИ*

***З.А. Мамедов***

*В статье отмечается, что юридическая наука возникла не внезапно и не случайно. На ее появление и развитие оказали большое и важное влияние естественно-исторические процессы, в том числе и некоторые важные общественные события. Юридическая наука изучает возникновение, развитие и функционирование права в хронологическом порядке. Это также изучается в рамках отдельных государств, появившихся в разные исторические периоды. Так, на разных этапах истории юридической науки в соответствии с требованиями соответствующего периода (общественной формации), произошли определенные изменения в содержании, предмете и структуре этой науки.*

***Ключевые слова:*** *Азербайджан, право, частный, наука, государство.*

***DEVELOPMENT AND FORMATION OF LEGAL SCIENCE***

***Z.A. Mammadov***

*The article notes that legal science did not emerge suddenly or accidentally. Its appearance and development was greatly influenced by natural historical processes, including some important social events. Legal science studies the emergence, development and functioning of law in chronological order. It is also studied in the framework of individual states that appeared in different historical periods. So, at the different stages of the history of legal science in accordance with the requirements of the corresponding period (social formation), there have been certain changes in the content, subject and structure of this science.*

***Keywords:*** *Azerbaijan, law, private, science, state.*

***Rəyçi: h.e.d., prof., A.E. Qasımov***